# "III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 iyul tarixli 198 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 iyul tarixli 198 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 847; 2025, № 1, maddə 69) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini".

2. "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin müavini

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini

Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyi İdarə Heyəti sədrinin müavini".

3. "Oğuz Rayon İcra Hakimiyyətinin başçısı", "Bərdə Rayon İcra Hakimiyyəti başçısının müavini", "Goranboy Rayon İcra Hakimiyyəti başçısının müavini", "İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının müavini", "Qazax Rayon İcra Hakimiyyəti başçısının müavini", "Şəmkir Rayon İcra Hakimiyyəti başçısının müavini", "Tərtər Rayon İcra Hakimiyyəti başçısının müavini" və "Tovuz Rayon İcra Hakimiyyəti başçısının müavini" abzasları ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 aprel 2025-ci il*

Azərbaycan.- 2025.- 17 aprel (№ 75).- S.3.